Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

# "EU4LANKARAN" LAYİHƏ XƏBƏRİ

İyun 2024

10-cu hissə

# "Aİ4LƏNKƏRAN" LAYİHƏSİ CƏLİLABAD RAYONUNUN DAVAMLI İNKİŞAF ETMƏKDƏ OLAN ÇİYƏLƏK İSTEHSALINI DƏSTƏKLƏYİR



Çiləlk sahəsi, Cəlilabad rayonu

Aİ4Lənkəran layihəsi çərçivəsində hazırlanan Çiyələk Dəyər Zənciri hesabatında Azərbaycanın Lənkəran-Astara iqtisadi rayonunda yerləşən Cəlilabad rayonunda çiyələk istehsalının mühüm rolunadan xüsusilə bəhs edilir. Uzun illərdən bəri rayonda həm çiyələk yetişdirililən sahələr, həm də yetişdirilən çiyələyin məhsuldarlığı əhəmiyyətli şəkildə artmışdır və bu faktorlar da yerli iqtisadiyyata öz töhfəsini göstərmişdir.



Çiyələk sahəsi, Cəlilabad

2023-cü ilə olan məlumata görə, Cəlilabadda 505 hektar sahədə çiyələk yetişdirilmiş və nəticədə 12,946 ton məhsul istehsal olunmuşdur. Ötən illərlə müqayisədə, bunu stabil artım adlandırmaq olar, belə ki, 2021-ci ildə 490 hektar sahədə 12,440 ton və 2022-ci ildə 607 hektar sahədə 15,205 ton məhsul istehsalı qeydə alınmışdır. İstehsal olunan çiyələklərin böyük hissəsi ixrac olunur, 2023-cü ildə istehsal olunan çiyələk məhsulunun 85,8%-i Rusiya bazarlarına göndərilmişdir. İxracın belə bir yüksək səviyyəsi göstərir ki, Cəlilabadın çiyələk istehsalı yalnız Azərbaycanda deyil, eyni zamanda beynəlxalq səviyyədə də olduqca vacibdir.

Cəlilabadın çox tanınmış cəmiyyətlərindən biri də Göytəpə şəhərindəki "Göytəpə Bağı" MMC-nin nəzdində təsis edilmiş "Fədək" cəmiyyətidir. Cəmiyyətdə 350 çiyələk istehsalçısı bir araya gəlmişdir. Cəmiyyət, Mirağa Həsənovun rəhbərliyi ilə, tərkibindəki üzvlərə çiyələk yetişdirmək üçün biznes kreditləri ayırır. Mirağa Həsənov həmçinin onlara münasib qiymətə sellofan qablaşmalar da təklif edir və cəmiyyət üzvlərinin məhsullarını alır, Bakıda satır və Rusiyaya ixrac edir.

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

Cəlilabadda çiyələk istehsalının iqtisadi əhəmiyyəti belə bir fakta əsaslanır ki, çiyələk istehsalı buğda, arpa və kartofla yanaşı, rayonda əsas gəlir gətirən məhsullardan biri hesab olunur. Bununla yanaşı, digər məhsullarla, o cümlədən, buğda və ya kartof məhsulları ilə müqayisədə, çiyələyin istehsal həcmi aşağı olsa da, yüksək dəyərinə görə daha yüksək gəlir potensialına malikdir.

Rayon Murano, San-Andreas və Albion kimi remontant (hər zaman məhsul verən) çiyələk sortlarının yetişdirilməsi üçün yaralı olan əlverişli torpaq şəraitinə malik olmaqla, mülayim, isti yarımsəhra və quru çöl iqlimindən faydalanır. Yuxarıda adı çəkilən çiyələk sortları ixrac standartlarına cavab verən yüksək keyfiyyətli çiyələk istehsalı ilə Cəlilabad rayonunun nüfuzuna müsbət ad qazandıran iqlim və torpaq şəraitinə yaxşı uyğunlaşır.



*Şitil əkimi, Cəlilabad*

Bu uğurlara baxmayaraq, Cəlilabad rayonunun çiyələk istehsalçıları xüsusilə marketinq və satış sahəsində bir sıra çətinliklərlə üzləşir. İstehsal olunan çiyələklərin birbaşa olaraq ixracatçılara və yerli ticarətçilərə satıldığı yerli bazar dinamikasına nəzər saldıqda daha yaxşı marketinq strategiyalarına və infrastruktura ehtiyacın olduğu məlum olur. Bundan əlavə, qabaqcıl qablaşdırma metodlarının olmaması və soyuq saxlama anbarlarının kifayət qədər olmaması daşınma, xüsusilə də ixrac zamanı çiyələklərin keyfiyyətinin qorunub saxlanması üçün risklər yaradır.



*Çiyələk şitilləri*

Bu məsələlərin bəzilərinin həlli ilə “Aİ4Lankaran” layihəsi Cəlilabadda çiyələk dəyər zəncirinin yaxşılaşdırılmasını əhəmiyyətli şəkildə dəstəkləyir. Bu istiqamətdə atılan addımlar Rusiyadan başqa yeni bazarların axtarışı üçün vacib olan brendinq və marketinq strategiyalarının daha da gücləndirilməsi təşəbbüslərindən ibarətdir. Əlavə olaraq, layihənin məqsədi HACCP sertifikatını almaq üçün yerli müəssisələrin iş şərtlərini yaxşılaşdırmaqdan ibarətdir ki, bununla da rayonda istehsal olunan məhsulları digər bazarlara çıxarmaq mümkündür. Layihə çərçivəsində həmçinin Individual Quick Frozen (IQF) və Frigo Seedlings kimi yeni texnologiyaları çiyələk sektorlarına tətbiq etmək üçün investisiya layihələrinin hazırlanması dəstəklənir. Məhsul yığımından sonrakı dövrdə itkilərin qarşısının alınması və çiyələk xammalına dəyər əlavə edilməsi üçün bu kimi investisiyalar çox vacibdir, bu da öz növbəsində yerli istehsalçıların gəlirlərinin artmasına təkan verir.

Son olaraq, nəzərə alınmalıdır ki, Cəlilabad rayonu çiyələk istehsalında çöx mühüm uğurlar qazanmışdır, lakin buna baxmayaraq, bu yüksək dəyərli məhsul potensialından tam bəhrələnmək üçün marketinq, infrastruktur və əlavə dəyər sahəsində bir sıra həll ediləcək çətinliklər hələ də qalmaqdadır. “Aİ4Lənkəran” layihələrinin davamlı dəstəyi ilə bu çətinliklərin bəzilərini aradan qaldırmaq mümkün olacaq və adı çəkilən layihələr çiyələk istehsalının Cəlilabad fermerləri üçün davamlı və gəlirli bir biznes obyekti olaraq qalmasını təmin edəcək.

***“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi haqqında daha çox yeniliklər üçün bizi izləməyə davam edin.***

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*